***Vüsalə NƏSİBOVA***
*AMEA Folklor İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru,*
*vusala.nasibova1221@gmail.com*
*ORCİD: 0009-0006-5556-9044*
*https://doi.org/10.59849/2309-7922.2026.1.134*

# AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ NOVRUZ BAYRAMI

**Xülasə**

Qədim tarixə və dərin ideya-məzmun xüsusiyyətlərinə malik Azərbaycan ədəbiyyatının tarixi yaddaşı müxtəlif mövzularla zəngindir. Onlar bəzən epoxal xarakter daşımız, müəyyən müddət bədii düşüncələrdə mövcud olmuş, zamanla ya yeni mövzulara transformasiya olunmuş, ya da inkişaf proseslərini dayandıraraq bədii yaddaş hadisəsinə çevrilmişdir. Ancaq elə mövzular da vardır ki, Azərbaycan bədii düşüncəsinin mifik dərinliklərindən bu günə kimi fasiləsiz olaraq ədəbiyyat tariximizdə yaşamaqdadır. Onlardan biri "bayram" mövzusudur. Onun ilkin tarixi mifik düşüncə çağları ilə bağlıdırsa, bütün orta əsrlər və müasir dövrü "Novruz" bayramı ilə bağlıdır. Azərbaycan folklor ədəbiyyatı və orta əsrlər ədəbiyyatına nəzər saldıqda Novruz bayramının milli bədii düşüncənin fasiləsiz tematik istiqamətlərindən biri olduğunu asanlıqla təsdiq edə bilərik.

Novruz bayramı Azərbaycan ədəbiyyatının bütün tarixi dövrləri ilə bağlıdır. Bu bayramla bağlı motivlər orta əsrlər Azərbaycan ədəbiyyatında özün geniş yer tutmuşdur. Novruz bayramı öz poetikası baxımından bütövlükdə folklor hadisəsidir. Bu cəhətdən, ona ən qədim dövr folklor nümunələrində məhz Novruz adı altında rast gəlinməməsi bayramın yoxluğunu göstərmir. Belə ki, yazın gəlişi ilə bağlı olan bu bayram Novruz adını alana qədər müxtəlif adlar altında Azərbaycan ritual-mifoloji mədəniyyətində özünə geniş yer tutmuşdur. Novruz bayramının kökləri birbaşa mifologiya ilə bağlıdır. Təbiətin, cəmiyyətin və zamanın yaranması ilə bağlı mifoloji ünsürlər ən qədim çağlardan tutmuş müasir dövrümüzə qədər kosmoqonik konseptlər kimi Azərbaycan ədəbiyyatı tarixində yaşamağa davam etmişdir. Klassik Azərbaycan ədəbiyyatında Novruz ilahi yaradılış fəlsəfəsi ilə qovuşmuş, təsəvvüfi-urfani mahiyyət kəsb etmişdir. XX əsrdə sovet-bolşevik ideoloqları milli kimliyin dirçəldilməsi və yaşadılması modeli olan Novruz bayramını qadağan etdilər. Buna rəğmən milli görüşlərə sahib olan Azərbaycan şairləri Novruzu məhz "yaz", "bahar" adları altında tərənnüm edərək bu motivi ədəbiyyatında yaşatmağa nail oldular.

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, Novruz bayramı, folklor, mif, ritual, mərasim nəğmələri

***Vusala NASIBOVA***

**AZERBAIJANI LITERATURE AND THE NOVRUZ HOLIDAY**

**Abstract**

The historical memory of Azerbaijani literature, which possesses an ancient history and profound ideological and thematic features, is rich in a wide range of subjects. Some of these themes had an epochal character, existed within artistic thinking for a certain period, and over time either transformed into new themes or, having ceased their development, became phenomena of artistic memory. However, there are also themes that originate from the mythological depths of Azerbaijani artistic thought and have continuously lived on in the history of national literature up to the present day. One such theme is the concept of the "holiday." While its origins are connected with the era of mythological thinking, both the Middle Ages and modern times are closely associated with the Novruz holiday.

An examination of Azerbaijani folklore and medieval literature clearly demonstrates that the Novruz holiday represents one of the stable and enduring thematic directions of national artistic thinking. Novruz is connected with all historical periods of Azerbaijani literature.

In the twentieth century, Soviet-Bolshevik ideology imposed a ban on the Novruz holiday, as it functioned as a model for the revival and preservation of national identity. Despite this prohibition, Azerbaijani poets who upheld national values continued to glorify Novruz by referring to it through concepts such as "spring" and the "season of blossoming," thereby preserving this motif within literary tradition.

**Keywords:** Azerbaijani literature, Novruz holiday, folklore, myth, ritual, ceremonial songs.

***Вусаля НАСИБОВА***

**АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА И ПРАЗДНИК НОВРУЗ**

**Резюме**

Историческая память азербайджанской литературы, обладающей древней историей и глубокими идейно-содержательными особенностями, богата разнообразными темами. Некоторые из них имели эпохальный характер, существовали в художественном мышлении определённый период, со временем трансформировались в новые темы или, прекратив процесс развития, превратились в явление художественной памяти. Однако есть и такие темы, которые, восходя к мифическим глубинам азербайджанской художественной мысли, непрерывно живут в истории нашей литературы до сегодняшнего дня. Одна из них — тема «праздника». Если её истоки связаны с эпохой мифологического мышления, то всё Средневековье и современность связаны с праздником Новруз. Рассматривая азербайджанскую фольклорную литературу и литературу Средних веков, можно с лёгкостью подтвердить, что

праздник Новруз является одним из устойчивых тематических направлений национального художественного мышления.

Праздник Новруз связан со всеми историческими периодами азербайджанской литературы. В XX веке советско-большевистские идеологи запретили праздник Новруз, который являлся моделью возрождения и сохранения национальной идентичности. Несмотря на это, азербайджанские поэты, сохранявшие национальные взгляды, продолжали воспевать Новруз словами «весна» и «пора цветения», тем самым сохранив этот мотив в литературе.

**Ключевые слова:** азербайджанская литература, праздник Новруз, фольклор, миф, ритуал, обрядовые песни.

**Giriş**

Qədim tarixə və dərin ideya-məzmun xüsusiyyətlərinə malik Azərbaycan ədəbiyyatının tarixi yaddaşı müxtəlif mövzularla zəngindir. Onlar bəzən epoxal xarakter daşımız, müəyyən müddət bədii düşüncələrdə mövcud olmuş, zamanla ya yeni mövzulara transformasiya olunmuş, ya da inkişaf proseslərini dayandıraraq bədii yaddaş hadisəsinə çevrilmişdir. Ancaq elə mövzular da vardır ki, Azərbaycan bədii düşüncəsinin mifik dərinliklərindən bu günə kimi fasiləsiz olaraq ədəbiyyat tariximizdə yaşamaqdadır. Onlardan biri "bayram" mövzusudur. Onun ilkin tarixi mifik düşüncə çağları ilə bağlıdırsa, bütün orta əsrlər və müasir dövrü "Novruz" bayramı ilə bağlıdır. Azərbaycan folklor ədəbiyyatı və orta əsrlər ədəbiyyatına nəzər saldıqda Novruz bayramının milli bədii düşüncənin fasiləsiz tematik istiqamətlərindən biri olduğunu asanlıqla təsdiq edə bilərik.

"Azərbaycan ədəbiyyatı və Novruz" mövzusu bir elmi problem kimi çox mürəkkəb hadisəsidir. Lakin o, ilk baxışdan sadə mövzu təsirini bağışlayır. Novruz bayramı ilə bağlı xüsusilə orta əsrlər Azərbaycan klassik ədəbiyyatında mövcud olan motivləri konstatasiya etmək (seçmək, aşkarlamaq, qeydə almaq...) heç bir çətinlik təşkil etmir. Lakin məsələyə Azərbaycan poetik düşüncəsinin strukturu kontekstində yanaşdıqda vəziyyət dəyişir. Bu halda semantika məsələləri (mənanın aşkarlanması, funksional strukturu, Novruzun bədii düşüncə sistemindəki yeri, rolu, ictimai şüurun digər formaları və ədəbi şüurla əlaqələri və s.) ortaya çıxır. Çünki Novruz bir bayram kompleksi olmaqla yanaşı, tarixən Şərq və Azərbaycan dini-təsəvvüfi, fəlsəfi-idraki düşüncə sisteminə də daxil olmuşdur. Bu cəhətdən, mövzunun mürəkkəbliyi, ilk növbədə, klassik Azərbaycan ədəbiyyatının semiotika (işarəvi struktur) baxımından mürəkkəb (çoxkodlu) struktura malik olması ilə şərtlənir. Orta əsrlər klassik poeziyasında eyni mətn vahidi (beyt, poetik abzas, bütün mətn) bir neçə təsvir kodunu (bədii, məcazi, dini, təsəvvüfi, fəlsəfi...) eyni zamanda ehtiva edirdi. Bu cəhətdən, orta əsrlər Azərbaycan poeziyası polisemantik struktura malikdir. Həmin çoxkodluluq və çoxmənalılıq sistemində Novruz bədii düşüncənin struktur səviyyələrində ən müxtəlif funksiyalarla bağlıdır. Bu da "Azərbaycan ədəbiyyatı və Novruz bayramı" probleminin nə dərəcədə mü-

rəkkəb semantikaya malik olduğunu göstərməklə yanaşı, onun öyrənilməsinin də eyni dərəcədə aktual olduğunu ortaya qoyur.

**"Azərbaycan ədəbiyyatı və Novruz" mövzusu "Ədəbiyyat və mərasim" mövzusunun tərkib hissəsi kimi:** Novruz bayramı ilə bağlı aparılmış tədqiqatlar (1; 9; 17; 14; 2; 3; 4; 5; 6; 8; 10; 11; 12; 13; 16, 18; 23 və s.) birmənalı şəkildə təsdiq edir ki, bu bayramın Azərbaycan ədəbiyyatı ilə bağlılığının kökləri bilavasitə Azərbaycan mifik düşüncə tarixi ilə bağlıdır. Bu, ilk növbədə Novruz bayramının mifik düşüncə hadisəsi olması ilə şərtlənir. Yəni birbaşa mifoloji düşüncə ilə bağlı olan bu bayramı təşkil edən rituallar orta əsrlər Şərq dünyasında "Novruz" adı altında tanınana, məşhurlaşana və universallaşana qədər ritual-mifoloji ənənədə müxtəlif adlar altında mövcud olmuş, mifoloji subsratlar yeni dini ideologiyalar çağında da simvollar şəklində yaşamaqda davam etmişdir. Bu, özünü xüsusilə dörd ünsür və beş ünsür məsələlərində göstərir.

Tədqiqatçılara görə, Novruz bayramı tarixən ən müxtəlif dini və ideoloji düşüncə sistemlərinin içərisindən keçmişdir. S.Rzasoy yazır ki, "Novruz bayramı tarixinə görə ilkin mifoloji-kosmoqonik görüşlərlə bağlıdır. Mifoloji düşüncənin parçalanaraq tarixi düşüncəyə keçidi zamanı əski dinlərə transformasiya olunmuş, daha sonrakı inkişafında müxtəlif səmavi və qeyri-səmavi dinlər, dini-ideoloji görüşlərlə qovuşmuşdur. Bu baxımdan, Novruz bayramı aşağıdakı din və dini-mifoloji dünyagörüşlərini özündə birləşdirir:

1. Qədim türklərin şamanizm dünyagörüşü;
2. Qədim və erkən orta əsr türklərinin tanrıçılıq dini;
3. Qədim Azərbaycan və İran xalqlarının zərdüştilik dini;
4. İslam dini və onun müxtəlif təriqət və məzhəbləri;
5. Xristian türk xalqlarının simasında xristianlıq dini;
6. İudaist türk xalqlarının (əsasən tarixi xəzərlərin və onların çağdaş törəmələrinin) simasında musəvilik – iudaizm dini.
7. İki milyona yaxın buddist türklərin simasında buddizm dini və s." (21, s. 90).

Bütün bu dini və mifoloji sistemlərin içərisindən keçmiş olan Novruz bayramı onu bir ritual sistemi baxımından səciyyənəndirən simvollar baxımından hər zaman mifologiyaya bağlı qalmış və Azərbaycan etnik-mədəni düşüncə sisteminin bütün tarixi boyunca bu və ya digər adlar altında mövcud olmuşdur.

Hüseyn İsmayılov Novruz bayramının tarix yolunun dörd mərhələ ilə bağlı olduğunu göstərmişdir:

1. Mif mərhələsi;
2. Ritual mərhələsi;
3. Mərasim mərhələsi;
4. Bayram mərhələsi (13, s. 3).

Məşhur novruzşünas alim Abdulhaluk Çay təsdiq edir ki, türklərdə Novruzla bağlı görə bildiyimiz ən əhəmiyyətli rəvayət onun (*mifokosmoqonik – V.Nəsibova.*) "Ergənəkon" dastanı ilə bağlı olmasıdır (9, s. 35).

Nəsimi Şərəfxanlıya görə, Novruz əski türk mövsüm və milli qurtuluş bayramıdır. Bu bayram min illərin o tayından gələn Ergənəkon bayramının günümüzdə yaşayan izidir (22, s. 56).

Seyfəddin Altaylı da Novruz bayramı ilə qədim türk mifoloji-kosmik dastanı olan "Ərgənəkon" arasında ciddi oxşarlıqların olduğunu müəyyən etmşdir (6, s. 85-86).

Bu və digər tədqiqatlar təsdiq edir ki, Novruz bayramı Şərq mədəniyyət tarixində məhz Novruz adı altında tanınana qədər bu bayramı qeyd edən xalqların, xüsusilə Azərbaycan xalqının mifik düşüncə tarixi ilə sıx şəkildə bağlı olmuşdur. Bu, qeyd etdiyimiz kimi, özünü Novruz bayramının mifik yaddaşında qorunub qalmış dörd ünsür və beş ünsür konseptləri ilə də təsdiq olunur.

Novruz bayramı müxtəlif mərasimlərdən ibarət mərasim kompleksidir. Həmin kompleksdə ilin son ayının dörd həftəsinin "çərşənbə" günü xüsusi əhəmiyyət daşıyır. Tədqiqatçılar dörd çərşənbənin qədim Şərq yaradılış ünsürləri olan "dörd ünsürlə" (su-od-torpaq-hava) bağlı olduğunu da təsdiq edirlər:

Birinci çərşənbə – Su çərşənbəsi;

İkinci çərşənbə – Od çərşənbəsi;

Üçüncü çərşənbə – Yel çərşənbəsi;

Dördüncü çərşənbə – Torpaq çərşənbəsi (17, s. 6-41; 20, s. 114).

Azərbaycan Novruz bayramında bu dörd ünsürlə bərabər, beşinci ünsürün, başqa sözlə, ağac ünsürünün də fəal olduğunu görürük. Bu isə qədim türk yaradılış ənənəsi ilə bağlıdır.

Çin qaynaqlarında qədim türk mifologiyasındakı 5 ünsür olduğu göstərilir və onların sırasında ağac da vardır: torpaq, ağac, atəş, dəmir, su (7, s. 45-46).

Sevinc Qasımova belə hesab edir ki, türklər başqa xalqlarla təmasa girdikcə onların 5 ünsür haqqındakı mifoloji görüşləri 4 ünsür haqqındakı qədim Şərq görüşlərinə qarışmış, daha sonra 4 ünsür fəlsəfəsi hakim düşüncəyə çevrilsə də, 5 ünsür haqqındakı inanclar xalq düşüncəsində, folklorda, o cümlədən Novruzla bağlı təsəvvürlərdə yaşamaqda davam etmişdir (16, s. 66).

Bahaəddin Ögel yazır ki, İran və Ön Asiya mifologiyasında külək, atəş, su və torpaq insanın yaradılışında çox əhəmiyyətli rol oynayırdı. Altay və Sibir türk mifologiyasında isə bu dörd ünsürə çox rast gəlmirik. Bu, ilk dəfə uyğurların zamanında görünür (19, s. 487).

Maraqlı və həm də səciyyəvidir ki, dörd ünsür bir qədim kosmoqonik ənənə kimi daim Azərbaycan ictimai şüurunda mövcud olmuş, ədəbiyyatda da öz əksini tapmışdır. Bu cəhətdən, XX əsr stalinizn repressiyalarının saysız-hesabsız qanlı qurbanlarından biri olmuş Azərbaycan şairi Əhməd Cavadın 1920-1921-ci illərə aid Novruz bayramına həsr olunmuş "Dörd çərşənbə" şeirinin məzmunu dörd ünsür üzərində qurulmuşdur: Səciyyəvidir ki, burada ilaxır çərşənbənin hər biri 4 ünsürlə əlaqələndirilmişdir. Şairə görə, Novruz mərasim kompleksində dünya bu dörd ünsür əsasında yenidən yaradılır. Ə.Cavad birinci yerdə hava stixiyasını tərənnüm etmişdir:

Açıldı hava,
Qurtardı dava.
Getdi qış,
Gəldi yaz...
... Görən deyir:
Üzə dəyən
Meyxoş meh də
Gözəl Yazın havasıdır.

Şair havadan sonra su stixiyasının canlandığın göstərir:

Bulaqların gözü açıq,
Ormanların üzü açıq...
...Hər yandan xoş avaz gəlir,
Sular deyir: Yaz... Yaz gəlir.

Havanın və suyun təsiri ilə torpaq stixiyası hərəkətə gəlir:

Torpağa bax, torpağa,
Sanki qalxır havaya.
Buxarlanır nəfəsi,
Oyanıbdır həvəsi...

Bütün bu ünsürlər odun gücü ilə dünyanın, insanın, o cümlədən Ə.Cavadın dünyasının yenidən canlanmasının əsasında durur:

Mən oddan yaranmışam,
Odur südüm, nəfəsim.
Od rənginə boyanmışam,
Oddur gücüm, oddur səsim!... (18, s. 67-68).

Şeirin əsas ideyası Novruzun yaradılış bayramı olması, hər il insanı, dünyanı və zamanı yenidən yaratması ilə bağlıdır. Ə.Cavad stixial yaradılış ideyasını milli ideyalara transformasiya edərək, əslində, 1918-1920-ci illərdə Rusiya imperiyasının dağılması və parçalanması nəticəsində yaranmış müstəqil Azərbaycan Respublikasını tərənnüm etmişdir. Lakin bu tərənnümə yalnız poetik pafos kimi yanaşmaq olmaz: şeirin poetik məna sisteminin alt qatlarında Azərbaycan ritual-mifoloji düşüncə sisteminin funksional arxetiplərini müşahidə etmək olur. Bu arxetiplər etnik-milli düşüncənin kosmoqonik semantemləri (məna vahidləri), milli kimliyin funksionalı mexanizmləri, sinergetik özünütəşkil potensiyası ilə birbaşa bağlıdır.

Cəlal Qasımova görə, Novruz, sadəcə olaraq, bir bayram yox, Azərbaycan xalqının ritual-mifoloji yaddaşının funksional formulu, mifik-kosmoloji düşüncə ilə yaşayan türk etnosunun gerçəkliyə münasibətinin etnopsixoloji mexanizmidir. Bu bayram əski türkün məkan-zaman haqqında bütün görüşlərinin yaddaş modeli və bu modelin funksional sistemidir. Yaddaş hərəkətə gəlməklə etnosu yaşadır: etnos yaddaş formulları əsasında funksionallaşır – mövcudluğunu qoruyur və inkişaf etdirir. Etnosun fiziki-mənəvi təcrübəsinin bütün aksioloji dəyərləri ilkin kökdən başlayıb, bütün dövrlər (siyasi, ideoloji, dini epoxalar) boyunca Novruza

konsentrasiya olunmaqla onu akkumulyasiya mənbəyinə – etnoenergetik sistemə çevirir. Vaxtaşırı (ritmik olaraq) Novruz bayramını keçirən etnos qapalı-dövrəvi ritmlə ondan keçməklə hər dəfə özünü etnoenergetik arxetiplərlə təchiz edir (15, s. 20-21).

Bu cəhətdən, Əhməd Cavadın sözü gedən şeirində də Novruz yalnız bir bayram kimi yox, Azərbaycan xalqını hər il yenidən yaradan funksional formul, etnopsixoloji mexanizm, sinergetik özünüyaradılış modeli kimi tərənnüm olunur. Şair şeirdə dörd ünsür elementləri təsviri ilə mifoloji yaddaşı canlandırmağa çalışır. Çünki 1920-ci ildə rus-bolşevik işğalı ilə özünün dövlət müstəqilliyini yenidən itirən Azərbaycan xalqı öz milli kimliyini məhz yaddaş formulları əsasında qoruya bilərdi. Həmin yaddaşı özünə akkumulyasiya edən Novruz bayramı, bu mənada, həmişə etnoenergetik düşüncə potensiyası rolunu oynamışdır.

Beləliklə, deyilənlər təsdiq edir ki, Novruz bayram kompleksinin Azərbaycan ədəbi düşüncə tarixi ilə bağlılığının kökləri birbaşa mifik düşüncə tarixinə gedib çıxır. Yəni Novruz Şərq dünyasında və Azərbaycan milli düşüncə tarixində "Novruz" adı altında universallaşana qədər ritual-mifoloji sistemlər şəklində mövcud olmuşdur. Bu da öz növbəsində "Azərbaycan ədəbiyyatı və Novruz" mövzusunun "Ədəbiyyat və mərasim" mövzusunun tərkib hissəsi olduğunu təsdiq edir.

**Novruz bayramı bədii yaddaş xəzinəsi kimi:** Ümumiyyətlə, ədəbiyyat və mərasim tarixən bir-biri ilə sıx şəkildə bağlıdır. Bu bağlılıq ilk növbədə mərasim folklorunda ifadə olunur. Mərasimlərdə çoxlu sözlü folklor mətnlərindən, xüsusilə nəğmələrdən istifadə olunur. Mərasimlərin stereotipik və simvolik davranış-hərəkət sistemləri olduğu məlumdur. Bu halda onlardakı bədii ünsürlər (nəğmələr və s. digər ədəbi janrlar) həmin davranış sistemlərinin mənasını bədii söz vasitəsilə ifadə edir.

Novruz mərasim kompleksi şifahi xalq ədəbiyyatı sıx şəkildə bağlıdır. Yəni bayrama qədərki çoxsaylı mərasimlərdə və bayram mərasimlərinin özündə nəğmələrdən və digər bədii folklor janrlarından geniş şəkildə istifadə olunur.

Novruz bayram kompleksindəki bədii mətnlər funksiya baxımından iki yerə bölünür:

Birincisi, sırf Novruz bayramı ilə bağlı bədii mətnlər;

İkincisi, Novruz bayramından kənarda da müstəqil folklor janrları kimi mövcud olan bədii mətnlər. Məsələn, atalar sözləri, məsəllər, tapmacalar, əfsanələr, rəvayətlər, nəğmələr və s.

Novruz bayramı ilə bağlı nəğmələr diqqəti xüsusi cəlb edir. Bunların əsas məna əlaməti onların çox qədim görüşləri (mifik təsəvvürləri) özündə əks etdirməsidir. Bu da mərasimi nəğmələrin xüsusi funksional keyfiyyətidir. B.N.Putilov göstərir ki, epik ənənədə müstəqil bir bütövü təşkil edən, süjet transformasiyaları zamanı semantik-poetik strukturunu dəyişməyən nəğmələr vardır (24, s. 15-16). Başqa sözlə, nəğmələrin formal-poetik strukturu onların öz bütövlüyünü qoruma-ğa imkan verir və onlar şifahi yaddaşda "yarandığı" ("olduğu") kimi yaşamaqda davam edir. Mərasim nəğmələri bu kateqoriyaya aiddir. Novruz bayramı, bu cə-

hətdən, özündə çox qədim ədəbi nümunələri qoruyaraq günümüzə qədər gətirib çatdırmışdır. Bunlardan biri yaz vaxtı gur yağan yağışların əkinlərə ziyan verdiyi vaxtlarda icra olunan Günəşi çağırma mərasimində oxunan nəğmələrdir:

Gün çıx, gün çıx!
Kəhər atı min çıx!
Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü,
Keçəl qızı evdə qoy,
Saçlı qızı götür çıx!

Gün getdi su içməyə,
Qırmızı don biçməyə.
Gün çıxıbdı yetirəcək,
Qarı yerdən götürəcək.
Keçəl qızı götürəcək,
Saçlı qızı gətirəcək (18, s. 89).

Bu nəğmə başdan-başa mifoloji ünsürlərlə zəngindir. Burada:

Gün – Günəş tanrısı;

Keçəl qız – yağıntısız buludlu havanın, qışın rəmzi;

Saçlı qızı – günəşli havanın rəmzidir.

Nəğmə bizə Günəş mifi ilə bağlı süjeti təqdim edir: qarlı havada Günəşin oğlu qayadan yıxılır, qızı təndirə düşüb yanır. Günəş su içir, istiliyin rəmzi olan qırmızı donunu geyir, qarları əridərək yazı gətirir.

Günəşlə bağlı mərasimlərdən biri "Qodu-Qodu" adlanır. Qodu burada Günəş tanrısının adıdır. Onun da şərfinə nəğmələr oxunur:

Qodu-Qodunu gördünmü?
Qoduya salam verdinmi?
Qodu burdan ötəndə
Qırmızı günü gördünmü? (18, s. 124)

Başqa bir nəğmə növü yağışı çağırma ilə bağlı "Çömçəxatun" mərasimində oxunan nəğmələrdir:

Anam-bacım, götür gəl,
Çömçəyə pay gətir gəl.
Yağış gətir, bizə gəl,
Çömçəyə pay gətir gəl... (18, s. 58)

Novruz mərasim nəğmələrindən biri "Kosa-Kosa" xalq tamaşası ilə bağlıdır:

A Kosa-kosa, gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana (18, s. 99)

Novruz bayram kompleksi, ümumən Novruz təqvimi ilə bu və ya digər şəkildə bağlı olan bu mərasim nəğmələri qədim Azərbaycan ədəbiyyatının nümunələridir.

**Novruz bayramı klassik Azərbaycan ədəbiyyatında:** Ümumiyyətlə, qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı Novruz motivləri ilə zəngindir. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin (1141-1209) "İskəndərnamə" poemasında Novruz bayramından da bəhs olunur. Şair bu bayramın məhsuldarlıq, sevinc, ümid bayramı kimi təsvir edir:

Novruz ilə Səddə bayramlarında
Ayinlər yenidən olurdu bərpa.
Ər üzü görməmiş növrəstə qızlar
Evindən sevinclə dışarı çıxar... (18, s. 10)

Orta əsrlər hürufi-sufi ədəbiyyatının görkəmli nümayəndəsi İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığında Novruz ilahi yaradılışın varlıq aləmindəki ən müxtəlif səviyyələrini əhatə edən kosmoqonik modeldir:

Mövsimi-novruzü neysan aşikar oldy yenə,
Şəhrimiz şeyxi bu gün badəxar oldu yenə (18, s. 139).

Klassik Azərbaycan ədəbiyyatında baharın gəlişi və Novruz bayramı ilə bağlı şeirlər "Bahariyyə", yaxud "Novruziyə" adı ilə ayrıca bir janr idi. Şah İsmayıl Xətainin (XVI əsr) "Dəhnamə" poemasında (1506) "Bahariyyə" şeirində Novruz dirilişi, ilahi eşqi təcəssüm etdirir:

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.
Quşlar qamusu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü... (18, s. 41)

XVI əsrin daha bir korifey şairi Məhəmməd Füzulinin yaradıcılığında Novruz gecəsi təbiəti, cəmiyyəti, zamanı bir-birinə qovuşduran ilahi yaradılışı modelidir:

Vəslin mənə Novruz gecəsində oldu müyəssər,
Sanki o gecə gündüz ilə oldu bərabər (18, s. 87).

**XIX-XX əsrlər Azərbaycan ədəbiyyatında Novruz motivləri:** Novruz mövzusu qədim və orta əsrlər ədəbiyyatında olduğu kimi, sonrakı əsrlərdə və bütövlükdə müasir Azərbaycan ədəbiyyatında da fasiləsiz şəkildə davam etmişdir. Məsələn, müasir Azərbaycan poetik dilinin korifeylərindən olmuş Molla Pənah Vaqif (1717-1797) Novruz bayramı zamanı öz maddi kasıblığından belə şikayətlənmişdir:

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdur.
Dügüylə yağ hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur... (18, s.193)

Vaqifin müasir, dostu və sirdaşı Molla Vəli Vidadi (1709-1809) Novruzu belə tərənnüm edir:

Novruzi-bahar oldu, cahan tazə-tər oldu,
Rəf oldu ələmlər.
Dağıldı bu şadlıq xəbəri dərbədər oldu,
Yandı oda qəmlər... (18, s. 194)

Bu şeir parçasında Novruz konseptinin Azərbaycan insanının düşüncəsində özünə yer tutmuş iki əsas cəhəti ifadə olunmuşdur:

Birincisi, Novruz bayramının gəlişi insanların qəm-kədərini azaldır və onlarda yeni ilin xoş, xeyir-bərəkətli keçəcəyinə inam yaradır. Bu cəhət Novruz bayramının ən mühüm etnopsixoloji konseptlərindən birini ifadə edir. İnsanların həyatına hər il eyni vaxtda "gələn" Novruz onların qəm-kədərinə son qoyur. Çünki Novruzun gəlişi ilə insanlar qışın ağırlıqlarından qurtulur, əkin-biçin başlanır, qış yemləri artıq tükənmiş mal-heyvan yaşıllaşmış çəmənlərə otlamağa çıxarılır.

İkincisi, Novruz bayram kompleksində ilin axır çərşənbə gecəsində odla, alovla təmizlənmə, paklanma ritualı keçirilir. İnsanlar odun üzərindən tullanıb bütün ağrı-acılarını, xəstəliklərini, qəm-kədərlərini odda yandırırlar.

Novruz yaz bayramıdır. Yazda təbiət oyanır, hər yer çiçəklərlə al-əlvan olur. XIX əsrin korifey sənətkarı Aşıq Ələsgər Novruzda təbiətin oyanmasını belə tərənnüm etmişdir:

Novruzda bahara deyərlər "bəli",
Gah kamala yetər, gah olar dəli.
Gün vuranda güneylərdən sel gəli,
Qüzey istər zimistana can desin... (18, s. 33)

Novruz bayramı görkəmli Cənubi Azərbaycan şairi Şəhriyarın (1905-1988) "Heydərbabaya salam" poemasında geniş şəkildə tərənnüm olunmuşdur. Sənətkar əsərdə Novruzu Azərbaycanın şimalı (Azərbaycanı Sovet Respublikası) ilə cənubu (İran Azərbaycanı) arasında mənəvi körpü kimi tərənnüm etmişdir:

Bayram yeli çardaxları yıxanda,
Novruz gülü – qar çiçəyi çıxanda,
Ağ buludlar köynəklərin sıxanda,
Bizdən də bir yad eyləyən sağ olsun,
Dərdlərimiz qoy dikəlsin, dağ olsun. (18, s. 176)

Azərbaycanin cənubu ilə şimalının nə vaxtsa qovuşacağına bəslənən ümidin Novruz bayramı ilə əlaqələndiriləməsinə Balaş Azəroğlunun da yaradıcılığında rast gəlirik:

Belə uzun qış görmədim
Mən ömrümdə bu qış kimi.
Köksüm altda vuran ürək
Çapalayıb bir quş kimi.
Döz demişəm.
Döz demişəm, Novruz gələr,
Qar altından baş qaldırar novruzgülü.
Boz buludlar parçalanar,

Göz açılar,
Asimanın sinəsində
Yanar şam-şam "ulduz gülü"... (18, s. 39)

XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Səməd Vurğunun yaradıcılığında Novruz motivlərinə çox rast gəlinir. Sənətkar etnoqrafik detallardan bədii ideyanın təcəssümündə məharətlə istifadə etmişdir:

Axır çərşənbədir... İl tamam olur...
Bu il kənd içində danışır hamı:
At üstə gəlmişdir Novruz bayramı.
Qulunlu at üstə... Bu, bir muraddır.
Qocalar deyir ki, bolluq keçəcək,
Torpaq su yerinə şərbət içəcək.
Odur ki, hamının ürəyi şaddır,
Hamının arzusu, ümidi gülür... (18, s. 166).

XX əsr Azərbaycan sovet poeziyasında Novruzla bağlı şeirlərin əsas xüsusiyyətlərindən biri şairlərin Novruzu onun adını çəkmədən tərənnüm etmələridir. Yəni onların yazın, baharın gəlişinə həsr etdiyi şeirlər sətir altında məhz Novruz bayramını nəzərdə tutur. Bu, sovet ideoloqlarının Novruz bayramı üzərində qoyduqları qadağa ilə bağlı idi.

C.Qasımov yazır ki, 1920-ci illərin axırı və 30-cu illərin əvvəllərində min illərlə xalqın yaddaşında kök salmış "Novruz" bayramı da din pərdəsi altında yasaq edilsə də, illər boyu küçə və meydanlarda böyük ruh yüksəkliyi ilə keçirilən bu milli bayramı xalq artıq gizli olaraq, qapalı şəraitdə, lokal bir məkanda – evində keçirməyə başladı. Bunu bilən dövlət məmurları evlərdə də bu tədbirin keçirilməsini qadağan etdi. Bütün qadağalara, təqib və təzyiqlərə baxmayaraq, xalq əcdaddan transfer edilən bu bayramın unudulmasına imkan vermədi, onu qoruyub saxlaya bildi. Başqa sözlə, nə bolşevik təbliğatı, nə də hüquq-mühafizə orqanlarının gördüyü tədbirlər illərlə gendə köklənmiş "Novruz"u yaddaşlardan birdəfəlik silə bilmədi, sadəcə, bu bayramın məkanı daraldı, küçədən, meydandan çıxaraq, evlərə, ürəklərə daxil oldu (15, s. 19-20).

Digər tərəfdən, unutmaq olmaz ki, klassik Azərbaycan ədəbiyyatında Novruzun bahar obrazı fonunda tərənnüm edilməsi ənənəsi var idi ("Bahariyyə" növü). Bu cəhətdən, XX əsr Azərbaycan ədəbiyyatındakı baharla bağlı şeirlərin alt qatında Novruz motivi durur. Fikrət Qocanın şeirində olduğu kimi:

Yollar əlvan boyanar,
Evlərdə arzu yanar,
Gözlərə sevinc qonar
Bayram axşamlarında... (18, s. 86)

XX əsr şairi Əliağa Kürçaylı da baharı səsləyərkən, əslində, Novruzu nəzərdə tutur:

Gəl, baharım,
Çöllərimə

Sarı güllü yonca gətir!
Çiçəklərin yaxasına
Düymələnmiş qönçə gətir!... (18, s. 117)

**Nəticə**

Aparılmış təhlil bizə bu nəticələrə gəlməyə imkan verdi:

Novruz bayramı Azərbaycan ədəbiyyatının bütün tarixi dövrləri ilə bağlıdır. Bu bayramla bağlı motivlər orta əslər Azərbaycan ədəbiyyatında özün geniş yer tutmuşdur.

Novruz bayramı öz poetikası baxımından bütövlükdə folklor hadisəsidir. Bu cəhətdən, ona ən qədim dövr folklor nümunələrində məhz Novruz adı altında rast gəlinməməsi bayramın yoxluğunu göstərmir. Belə ki, yazın gəlişi ilə bağlı olan bu bayram Novruz adını alana qədər müxtəlif adlar altında Azərbaycan ritual-mifoloji mədəniyyətində özünə geniş yer tutmuşdur.

Novruz bayramının kökləri birbaşa mifologiya ilə bağlıdır. Təbiətin, cəmiyyətin və zamanın yaranması ilə bağlı mifoloji ünsürlər ən qədim çağlardan tutmuş müasir dövrümüzə qədər kosmoqonik konseptlər kimi Azərbaycan ədəbiyyatı tarixində yaşamağa davam etmişdir.

Klassik Azərbaycan ədəbiyyatında Novruz ilahi yaradılış fəlsəfəsi ilə qovuşmuş, təsəvvüfi-irfani mahiyyət kəsb etmişdir.

XX əsrdə sovet-bolşevik ideoloqları milli kimliyin dirçəldilməsi və yaşadılması modeli olan Novruz bayramını qadağan etdilər. Buna rəğmən milli görüşlərə sahib olan Azərbaycan şairləri Novruzu məhz "yaz", "bahar" adları altında tərənnüm edərək bu motivi ədəbiyyatında yaşatmağa nail oldular.

## ƏDƏBİYYAT

1. Abdulla B. Azərbaycan mərasim folkloru. Bakı: Qismət, 2005, 208 s.

2. Albalıyev Ş. İlaxır çərşənbələr Novruzqabağı çillələrdir! / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı: Nurlan, 2009, s. 100-116

3. Albalıyev Ş. Novruz – təbiətlə cəmiyyətin bütövləşməsi bayramı! / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXIV kitab. Bakı: Nurlan, 2011, s. 46-54

4. Albalıyev Ş. Qədim dünyamızın sehrli səsi – Novruz / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXIX kitab. Bakı: Elm və təhsil, 2012, s. 54-65

5. Allahverdiyev R. Azərbaycan təqvim miflərinin semantikası: Fil. üzrə fəl. dok. ...dissertasiya. Bakı, 2011, 158 s.

6. Altaylı S. Novruz və "Ərgənəkon" dastanı arasındakı oxşarlıqlar // "Dədə Qorqud" jur., 2008, № 2, s. 80-86

7. Bayat F. Türk Mitolojik Sistemi. Cilt 1. İstanbul: Ötüken, 2007, 380 s.

8. Bəydili (Məmmədov) C. Yaz bayramı ilə bağlı bir sıra mifoloji obraz və anlayışların simvolikasından // "Dədə Qorqud" jur., 2003, № 1, s. 89-105

9. Çay A.M. Nevruz – Türk Ergenekon Bayramı. Sekizinci Baskı. Ankara, 1999, 579 s.

10. Hüseynoğlu K. Qədim Turan: mifdən tarixə doğru. Bakı: M.B.M, 2006, 120 s.

11. Xəlil A. Türk xalqlarının yaz bayramı və Novruz. Bakı: Elm və təhsil, 2012, 144 s.

12. Xürrəmqızı A. Azərbaycan mərasim folkloru (Türk və dünya xalqları folkloru ilə tarixi-müqayisəli araşdırma). Bakı: Səda, 2002, 210 s.

13. İsmayılov H. Novruz bayramı: tarixi-mədəni mahiyyəti və semantik strukturu / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı: Nurlan, 2009, s. 3-13

14. Qafarlı R. Novruz – yaranış, oyanış və yeniləşmə bayramı // "Xalq qəzeti", 20 mart 2013

15. Qasımov C. Novruz bayramı milli-mənəvi dəyərlərin repressiyası kontekstində / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı: Nurlan, 2009, s. 14-23

16. Qasımova S. Azərbaycanda Novruz ənənə və inancları. Bakı: Elm və təhsil, 2018,188 s.

17. Nəbiyev A. İlaxır çərşənbələr. Bakı: Azərnəşr, 1992, 62 s.

18. Novruz Bayramı Ensiklopediyası. Tərtib edənlər: Bəhlul Abdulla, Tofiq Babayev. Bakı: Şərq-Qərb, 2008, 208 s.

19. Ögel B. Türk mitolojisi (Kaynakları ve Açıklamaları ile Destanlar), I cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1989, 644 s.

20. Paşabəyli Ə. İlin axır çərşənbəsi // "Dədə Qorqud" jur., 2009, № 1, s. 112-115

21. Rzasoy, S. Novruz bayramının konseptual-fəlsəfi əsasları // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. – Bakı: Nurlan, – 2009, – s. 87-90

22. Şərəfxanlı N. Ergənəkon bayramı – Novruz // "Dədə Qorqud" jur., 2003, № 2, s. 50-57

23. Yoloğlu G. Mövsüm mərasimləri. Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 2009, 218 c.

24. Путилов Б.Н. Героический эпос и действительность. Ленинград: Наука, 1988, 225 с.

*Redaksiyaya daxilolma tarixi: İlkin variant: 29.04.2026*
*Son variant: 01.05.2026*